# Azərbaycan mədəni və dini birgəyaşayışın modelidir

**Azərbaycan iqtisadi inkişaf baxımından dünyada ən sürətlə inkişaf edən ölkədir. Eyni zamanda mədəni müxtəliflik sahəsində görülən və həyata keçirilən işlər çox uğurludur. Bu sahə dövlət siyasətinin prioritet sahələrindən biridir. Ölkələr arasındakı əlaqələrin daha da inkişafı üçün humanitar aspektlərə rəsmi Bakının daim böyük diqqət göstərdiyini, tarixi keçmişimizin, mədəniyyətimizin bunu diktə etdiyini diqqətə çatdıran dövlətimizin başçısı cənab İlham Əliyev bildirib ki, əsrlər boyu Azərbaycanda multimədəniyyətli cəmiyyətlər mövcud olub və ölkəmizdə yaşayan xalqlar arasında dostluq və həmrəylik bunun bariz nümunəsidir.**

Azərbaycan milli-etnik rəngarəngliyinə, fərqli dini konfessiyaların mövcudluğuna görə dünyada nadir ölkələrdən biridir. Azərbaycan xalqının bu milli-etnik özünəməxsusluğu onun yaşadığı tarixdə və yaratdığı mədəniyyətdə, o cümlədən ədəbiyyatda və incəsənətdə öz əksini tapıbdır. Xalqımızın bu xüsusiyyəti yalnız qorunub saxlanılmır, hətta ona dövlət səviyyəsində böyük qayğı və diqqət göstərilir. Təsadüfi deyil ki, mədəniyyətlər, sivilizasiyalar və konfessiyalar arasında zəngin əməkdaşlıq ənənələri olan Azərbaycan bu formatda tədbirlərin keçirildiyi ideal yerdir. Bütün bunlara görədir ki, son illər dünya mətbuatında tez-tez Azərbaycandakı multikultural mühitdən bəhs olunan geniş yazılar yer alır. Məsələn, bu günlərdə İtalianın "Daily cases" saytındakı məqalədə Azərbaycan mədəni və dini birgəyaşayışın modeli, məscidlərlə yanaşı, sinaqoqların və kilsələrin fəaliyyət göstərdiyi fəxr ediləsi bir ölkə kimi təqdim olunur. Ölkəmizin əlverişli coğrafi mövqeyi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi paytaxt Bakının özəllikləri və respublikamızla bağlı digər məqamlara toxunan müəllif İtaliya Coğrafiya Cəmiyyətinin (İCC) nümayəndələrinin Azərbaycana səfəri ilə bağlı bu ay Romada keçirilmiş konfrans haqqında da məlumat verir. Müəllif yazır ki, İCC-ni təmsil edənlər Azərbaycanda on günlük səfərdə olublar. Azərbaycandakı mövcud mədəni müxtəlifliyi, tolerant mühiti dərindən öyrənən italiyalı mütəxəssislər öz təəssüratlarını konfransda bölüşüblər. Milli Məclisin deputatı, Azərbaycan-İtaliya parlamentlərarası dostluq qrupunun rəhbəri Azər Kərimlinin də qatıldığı tədbir iqtisadiyyatla yanaşı, turizm potensialına görə də fərqlənən Azərbaycanı daha yaxından tanımağa inkan yaradıb.

Müəllifin fikrincə, bu gün Bakı Avropaya hər zamankından daha yaxındır. Bu şəhərin zənginliyi, möhtəşəm tikililəri, qədim tarixi abidələri, müasir göydələnləri, geniş parkları sanki səmada əks olunan cənnəti xatırladır. Azərbaycan eyni zamanda, TAP və TANAP layihələri vasitəsilə Avropanın enerji təhlükəsizliyinin təminatında mühüm ölkəyə çevrilib.

Bu gün Bakı müxtəlif mədəniyyətlərə mənsub insanların eyni məkanda toplaşdığı, qlobal mövzuların müzakirə olunduğu bir şəhərə çevrilib, — deyən məqalə müəllifi qeyd edir ki, belə tədbirlərdən biri də cari ilin mayında keçirilmiş III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumdur. Tədbir haqqında ətraflı məlumat verən müəllif qeyd edir ki, Azərbaycandakı multikultural atmosfer bu cür tədbirlər vasitəsilə daha çox hiss olunur.

Xatırladaq ki, sözügedən forumda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev geniş və əhatəli nitqində bildirib: "Dərin multikulturalizm köklərinə malik ölkə və xalq kimi, biz qlobal arenada bu müsbət dəyərlərin təşviqində müvafiq rol oynamağa çalışırıq. Azərbaycan müsəlman dünyasına mənsub olan ölkədir, ancaq eyni zamanda, onun Avropa ilə güclü bağlılığı var. Müsəlman dünyasının ilk demokratik respublikası 1918-ci ildə Azərbaycanda yaradılıb və dərhal qadınlara seçki hüququ verilib. Bu da bir sıra Avropa ölkələrindən əvvəl baş tutub. Beləliklə, bizim etnik və mədəni özünəməxsusluğumuz, habelə Avropanın təsiri cəmiyyətimizdə xüsusi ab-hava yaradıb. Əsrlər boyu dəyərlərimizi qoruya bilmişik. Biz fərqli siyasi və ictimai şəraitdə yaşamışıq, müxtəlif dövlət və imperiyaların tərkibində olmuşuq. Artıq biz müstəqilik, ancaq müsbət meyil davam edir və bu dəyərlərin təşviqi məsələsinə sadiqik".



**Şükür ƏLİZADƏ,**
**"Respublika".**